# İŞĞAL NƏTİCƏSİNDƏ MƏHV OLMUŞ ŞƏHƏR LANDŞAFTI

**Şahnaz Amanova**

*AMEA-nın Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*

Tədqiqat ərazisi erməni işğalı nəticəsində məhv olmuş Ağdam şəhərini əhatə edir. 1741-1752-ci illərdə salınmış Ağdam şəhəri 1993-cü il iyul ayının 4-də düşmən tərəfindən bombalanmış, Ağdam şəhərində xidmət edən əsgərlər və şəhərdə yaşayan mülki əhali evakuasiya olunmuşlar. Nəticədə 23 iyul 1993-cü il tarixində işğal olunmuş Ağdam şəhəri 20 noyabr 2020-ci il tarixində ordumuz tərəfindən işğaldan azad edilmişdir.

İşğal nəticəsində məhv olmuş Ağdam şəhərini "Lonely Planet" jurnalı 2008-ci il buraxılışında "Qafqaz Xirosima"sı adlandırmışdır. Dağıdılmış şəhəri talan edən işğalçılar evləri, obyektləri, milli-mədəniyyət, tarixi abidələrimizi söküb məhv etmişlər, bu görünüşünə görə 2010-cu ildə Əl-Cəzirənin onlayn nəşri onu "ruhlar şəhəri" siyahısına daxi etmişdir.

Bakıdan 362 km məsafədə yerləşən şəhərdə 1912-ci ildə əhali 623 nəfər təşkil edirdisə, 1989-cu ildə 28.031 nəfərə qədər artmışdır. Bu əhalinin 14.308 nəfərini kişilər, 13.723 nəfərini qadınlar təşkil edirdi. 2010-cu ildə əhalinin sayı cəmi 360 nəfər olmuşdur ki, bunlar heyvandarlıq və əkinçiliklə məşğul olmuşlar.

Aerokosmik şəkillərin deşifrələnməsinə əsasən müəyyən edilmişdir ki, 2004-2019-cu illərdə şəhərdə əvvəllər məhv edilərək qalıqları qamış tikintilər də tamamilə yerlə yeksan edilmişdir (şəkil).

a)  b) 

c) 

Şəkil. Ağdam şəhər məscidi və ətraf ərazilərin a) 2004, b) 2019-cu illərə aid aerokosmik şəkilləri və c) onların müqayisəsi